0503851763

Azərbaycan Dili DQ Qəbul sualları.

Aprel 2024

Günay Həsənova

1. Sözə bitişik yazılan qoşmaları müəyyən edin:
1. dək 2. tək 3. qədər 4. ca
5. bəri 6. can 7. görə 8. kimi
A) 2,4,6,8 B) 1,4,7,8
C) 3,4,6,7 D) 2,3,5,6
E) 1,2,4,6

2. Vurğusu düzgün ***göstərilməyən*** sözü müəyyən edin:
A) refe'rat B) ide'ya
C) qanu'n D) tələba't
E) konve'rsiya

3. Hansı cümlələrdə əlavə işlənmişdir?
1. Şuşa, Laçın, Ağdamda – bir sözlə, işğaldan azad olunmuş bəzi ərazilərdə abadlaşdırılma işləri davam edir.
2. Bizimkilər onu – təzə sex rəisini hörmətlə qarşıladılar.
3. İki il əvvəl, yəni oğlumun toyuna hazırlaşanda evimizi yaxşı təmir etmişdik.
4. Qonaqların bir çoxu: Sevil, Natiq, Samirə, Namiq hələ indi gəldilər.
5. Surxay çox ağıllıdır, hər şeyi bacarır.
A) 2,3 B) 1,2,5 C) 1,4
D) 1,3,5 E) 2,4

4. Mənsubiyyət şəkilçisi işlənmiş söz birləşmələrini müəyyən edin.
A) armudu stəkan, gümüşü saç
B) sancı hiss etmək, dolu yağanda
C) həyati əsər, zehni iş
D) onun zehni, xalq şairi
E) uşağı səsləmək, parçanı kəsmək

5. Mürəkkəb cümlələri təşkil edən komponentlərdən biri əmr, digəri nəqli cümlədir:
A) Başlı başını saxlasın, mən başımdan bezaram.
B) Sərvər də sənlə gedib qalan ərzaqları gətirsin.
C) Azarlı tələsər, armud vaxtında yetişər
D) Balığı ya öldür, ya sudan qırağa qoy.
E)) İlan çalan yatar, ac yatmaz

6. Hansı nümunələrdə həm sadə, həm də düzəltmə sifətlər işlənmişdir?
1. Sonsuz ayrılığın qəm ordusunu.
Öz vüsal ordumla yenəcəyəm mən. (S.Rüstəm)
2. Qorxaqlar görmüşük igid adlanıb,
Aldadıb çoxunu saxta vüqarı. (X.R.Ulutürk)
3. Nədir bizim ömrümüzün şərbət kimi şirin dadı?
Nədir bizim çaldığımız havaların böyük adı? (S.Vurğun)
4. Mən qanadsız piyadadan.
Durub dilək dilərsənmi? (M.Yaqub)
5. Yuvası yetim qalan bir qanadsız quşam mən,
İsti ana köksünü arzularam ürəkdən. (M.Şəhriyar)
A) 2,3,5 B) 1,3,4 C) 1,2,5
D) 1,2,4 E) 3,4,5

7. Hansı nümunələrdə altından xətt çəkilmiş sözlərin tərkibində iki leksik, iki qrammatik şəkilçi işlənmişdir?
1. Al-yaşıl geyinmiş uca dağların,
Qartallı qoynundan <u>uzaqlaşmışam.</u> (S.Vurğun)

Günay Həsənova

2. Nə bir dostun varmış, nə bir düşmənin,
Arzusuz, amalsız,
diləksizsənmiş. (S.Rüstəm)
3. Duyurdum hər gözdən bir hissi-hörmət,
Xəyalım ən yüksək şeylər andıqca.
(S.Vurğun)
4. Sən vətəndən sarı qəlbin döyünürsə,
maralım,
Vətənin də maralından sarı qəlbi döyünür.
(M.Şəhriyar)
5. Dalıb üfüqlərin sonsuzluğuna,
Qışqırmaq bu eşqi bütün
cahana. (M.Şəhriyar)

8. Uyğunluğu müəyyən edin:
1. Yol hərəkəti qaydasının pozulması zamanı yazılır.
2. Bir işin görülməsi üçün verilən hökm, göstəriş deməkdir.
3. Müəllif özü yazır və məqsədini bir neçə cümlə ilə şərh edir.
I arayış
II protokol
III annotasiya
IV əmr
V rəy
A) 1 – I, 2 – IV, 3 – V
B) 1 – IV, 2 – I, 3 – III
C) 1 – II, 2 – IV, 3 – III
D) 1 – I, 2 – II, 3 – III
E) 1 – II, 2 – I, 3 – V

9. Cümlələrin birində *"idi"* hissəciyi xəbər şəklinin indiki zamanına əlavə olunmuşdur:
A) Tezliklə onun ünvanını tapıb gətirdi
B) Güclü zərbə ilə rəqibinin işini bitirdi.
C) Az bir zamanda qazandığı hörməti itirdi.
D) Döyüşün ən qızğın vaxtında özünü yetirdi..
E) Müəllim şagirdlərə yeni kitablar paylayırdı.

10. Durğu işarəsinin ***səhv*** işləndiyi cümlələri müəyyən edin:
1. O, illəri yaman xatırlayırsan.
2. O, həsrətlə baxdı körpəyə.
3. O, qalxmaq istədi, lakin özünü itirdi.
4. O, irəliyə doğru qaçdı.
5. Hansını deyirsən? O, sarı toru?
A) 1,2,3 B) 3,4,5 C) 2,4,5
D) 1,3,5 E) 1,2,4

11. Hansı söz defislə yazılmalı ***deyil?***
A) foto-reportaj
B) təlim-tərbiyə
C) bitməz-tükənməz
D) qeyri-adi
E) tar-kaman

12. *" Əsmər babasının təzəcə alıb gətirdiyi gülü dibçəyə saldı"* cümləsində ədəbi dilin hansı norması ***pozulmuşdur?***
A) orfoepik
B) orfoqrafik və leksik
C) qrammatik
D) leksik
E) qrammatik və leksik

13. Mürəkkəb yer zərfliyi işlənmiş cümlələri müəyyən edin.
1. Təzə evlər Babək prospektində tikiləcək.
2. Bağımız dəniz kənarında yerləşir.
3. Gündəliyim Həsən müəllimdə qalmışdı.
4. Kənd yerində yaşayan bunu bilməz.
5. Dayımgil Cəlilabadda yaşayır

14. Hansı nümunələrdə antonim sözlər işlənib?
1. Dəymişini qoyub kalını dərir.
2. Şər deməsən, xeyir gəlməz.
3. Şeytan olmasa, qurd quzu ilə gəzər.
4. Gülmək ağlamaqla əkizdir.
5. Sənin bacarığınla, ağlınla fəxr edirəm.

Günay Həsənova

15. Həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etmiş əvəzlik hansı cümlələrdə işlənib?

1. Elələrinə ehtiramla yanaşırlar.
2. Bunları hamıya deyə bilərsən.
3. Beləsini vaxtında qiymətləndirmək lazımdır.
4. Sən özünə əmin deyilsən
5. Onun kimsədən qorxusu yoxdur.
6. Sizin arxa saydığınız bunlardırlarmı?

0503851763

Günay Həsənova